

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 209 (23.120)

*1 noyabr 2018-ci il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

**Qiyməti 20 qəpik**


## "Publik hüquqi şəxslərin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Publik hüquqi şəxslərin Nümunəvi Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 31 oktyabr 2018-ci il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Publik hüquqi şəxslərin NÜMUNƏVİ NİZAMNAMƏSİ

**1. Ümumi müddəalar**

1.1. Publik hüquqi şəxs (bundan sonra - Qurum) Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müəyyən etdiyi sahədə (bundan sonra – müvafiq sahə) fəaliyyət göstərir. Qurum Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müəyyən etdiyi hallarda müvafiq sahədə dövlət siyasətinin formalaşmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir, tənzimləməni və nəzarəti həyata keçirir.

1.2. Qurum öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, həmin Qurumun Nizamnaməsini, digər normativ-hüquqi aktları rəhbər tutur.

1.3. Qurum öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları və muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Qurum ümumdövlət və ya ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müəyyən etdiyi hallarda Qurum həmin Qurumun Nizamnaməsində qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Qurumun müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampı və blankı vardır.

1.6. Qanuna uyğun olaraq Qurumun əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Qurum məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. Qurum _________ şəhərində (rayonunda) yerləşir.

**2. Qurumun fəaliyyətinin məqsədi və fəaliyyət istiqamətləri**

2.1. Qurumun fəaliyyətinin məqsədi müvafiq sahədə fəaliyyət göstərməkdir.

2.2. Qurumun fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.2.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müəyyən etdiyi hallarda müvafiq sahədə dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini təmin etmək, tənzimləməni və qüvvədə olan qanunvericiliyə əməl edilməsinə nəzarəti həyata keçirmək;

2.2.2. müvafiq sahənin inkişafını təmin etmək;

2.2.3. Qurumun Nizamnaməsində müəyyən edilən digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. Qurumun vəzifələri və hüquqları**

3.1. Qurumun Nizamnaməsi ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Qurumun vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə qanunvericilik aktlarının və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. qanunvericiliklə müəyyən olunmuş hallarda normativ xarakterli akt qəbul etmək;

3.1.3. qanunvericiliklə nəzərdə tutulan hallarda və qaydada hüquqmüəyyənedici sənədlər vermək, müvafiq məsələlərə münasibət bildirmək;

3.1.4. müvafiq sahədə inzibati xəta əlamətləri aşkar etdikdə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.5. dövlət orqanları və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.6. müvafiq sahədə elektron xidmətləri qanunvericiliyə uyğun olaraq təşkil etmək;

3.1.7. Qurumun fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə qanunvericiliyə uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.8. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ-hüquqi aktların tələblərinə uyğun təşkil etmək, Qurum əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.9. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.10. Quruma ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.11. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.12. Qurumun informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.13. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.14. qabaqcıl təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.15. müvafiq sahədə peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsində iştirak etmək;

3.1.16. Qurumun Nizamnaməsi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Qurumun aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ-hüquqi aktın layihəsinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında aidiyyəti üzrə təklif vermək;

3.2.2. xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

3.2.3. Quruma müvafiq sahədə qanunvericiliyə əməl edilməsinə nəzarəti həyata keçirmək səlahiyyəti verildiyi halda yoxlamalar aparmaq, icrası məcburi olan göstərişlər vermək və bundan irəli gələn digər tədbirlər görmək;

3.2.4. qanunvericiliklə müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumu, habelə qanunla müəyyən edildiyi hallarda digər ödənişlər tutmaq;

3.2.5. fəaliyyət istiqamətlərinə aid məsələlərə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.6. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.7. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.8. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

3.2.9. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.10. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.11. Qurumun Nizamnaməsində sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq imkanı nəzərdə tutulduğu halda təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.12. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.13. Qurumun Nizamnaməsi ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. Qurumun idarə olunması**

4.1. Qurum öz fəaliyyətində və idarəetmədə mütərəqqi idarəetmə standartlarını tətbiq edir.

4.2. Qurumun təsisçisi səlahiyyətlərinin (onların bir hissəsinin) həyata keçirilməsini müəyyən etdiyi digər orqana (quruma) verə bilər.

4.3. Qurumun Nizamnaməsində aşağıdakı idarəetmə formalarından biri müəyyənləşdirilə bilər:

4.3.1. təkbaşçı icra orqanı (direktor, Baş direktor, İcraçı direktor);

4.3.2. İdarə Heyəti.

4.4. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müəyyən etdiyi hallarda Qurumun Nizamnaməsində idarəetmə orqanlarının (icra orqanı) səlahiyyətlərinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin və ya digər dövlət orqanı (qurumu) ilə razılaşdırmaqla həyata keçirilməsi nəzərdə tutula bilər.

4.5. İdarə Heyəti Quruma ümumi rəhbərliyi və nəzarəti həyata keçirir. İdarə Heyətinin üzvlərini (sədr də daxil olmaqla) təsisçi vəzifəyə təyin və vəzifədən azad edir.

4.6. İdarə Heyəti üzvlərinin sayını təsisçi müəyyən edir.

4.7. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini İdarə Heyəti üzvləri arasından sədrin müəyyən etdiyi şəxs icra edir.

4.8. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.8.1. Qurumun fəaliyyətini təşkil etmək;

4.8.2. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün təsisçiyə təkliflər vermək və sənədlər (o cümlədən Qurumun maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.8.3. Qurumun inkişaf istiqamətlərini (təsisçi İdarə Heyətinə bu səlahiyyəti verdiyi halda), strateji məqsəd və planlarını müəyyən etmək;

4.8.4. Qurumun fəaliyyətinə nəzarət etmək;

4.8.5. Qurumun strukturunu və işçilərinin say həddini təsdiq etmək (təsisçi İdarə Heyətinə bu səlahiyyəti verdiyi halda), əməkhaqqı fondunu və işçilərin əməkhaqlarını təsdiq etmək, Qurumun əldə etdiyi vəsait (dövlət büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyənləşdirmək;

4.8.6. təsisçinin razılığı ilə Qurumun təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin Qurumun idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.8.7. Qurumun fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.8.8. Qurumda daxili audit bölməsi yaradıldığı halda həmin bölmənin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.8.9. təsisçinin razılığı ilə Qurumun xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Qurumun aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.8.10. Qurumun Nizamnaməsi ilə müəyyən edilmiş vəzifələri yerinə yetirmək;

4.8.11. aidiyyəti şəxslə dəyəri Qurumun aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.8.12. Qurumun strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.8.13. bu Nümunəvi Nizamnamənin 3.1.10-cu yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.8.14. cari və operativ məsələlər barədə təsisçini məlumatlandırmaq;

4.8.15. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.8.16. bu Nümunəvi Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.8.17. İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

4.9. İdarə Heyətinin iclası Qurumun Nizamnaməsində müəyyən olunmuş müddətlərdə çağırılır. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin hamısı iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında, hər üzvün bir səsi olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, İdarə Heyəti sədrinin (və ya onu əvəz edən digər üzvün) səsi həlledicidir.

4.10. İdarə Heyətinin sədri:

4.10.1. Qurumun cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.10.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.10.3. öz təşəbbüsü və ya İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.10.4. öz təşəbbüsü, habelə İdarə Heyətinin hər hansı bir üzvünün təşəbbüsü əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.10.5. Qurumun fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.10.6. Qurumun fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

*Ardı 2-ci səhifədə*

4.10.7. Qurumun vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.10.8. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Qurumun Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;

4.10.9. Qurum işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;

4.10.10. Qurumun Nizamnaməsində müəyyən edilmiş hallar istisna olmaqla, Qurumun, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;

4.10.11. Qurumun əmlakından onun Nizamnaməsində nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.10.12. Qurumun Nizamnaməsi ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Qurumun adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.10.13. Qurumun fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.10.14. Qurumun fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.10.15. Qurumda kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.10.16. Qurumda müraciətlərə baxılmasını və vətəndaşların qəbulunu təmin edir.

4.11. İdarə Heyətinin üzvləri:

4.11.1. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.11.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.11.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.11.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.11.5. İdarə Heyətinin qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.12. İdarə Heyətinin üzvləri onun iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.13. Bu Nümunəvi Nizamnamənin 4.3.1-ci yarımbəndində nəzərdə tutulmuş idarəetmə forması seçildiyi halda təkbaşçı icra orqanı (direktor, Baş direktor, İcraçı direktor) Qurumun fəaliyyətinə cari rəhbərliyi həyata keçirir. Bu halda təkbaşçı icra orqanının rəhbərini (direktoru, Baş direktoru, İcraçı direktoru) və onun müavinini (müavinlərini) təsisçi (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri başqa qayda nəzərdə tutmadıqda) vəzifəyə təyin və vəzifədən azad edir.

4.14. Təkbaşçı icra orqanı rəhbərinin müavinlərinin sayını təsisçi müəyyən edir.

4.15. Təkbaşçı icra orqanının rəhbəri müvəqqəti olmadıqda onu müvafiq əmrlə onun müavinlərindən biri əvəz edir.

4.16. Təkbaşçı icra orqanının rəhbəri və onun müavini adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

4.17. Bu Nümunəvi Nizamnamənin 4.3.1-ci yarımbəndində nəzərdə tutulmuş idarəetmə forması seçildiyi halda təkbaşçı icra orqanının rəhbəri bu Nümunəvi Nizamnamənin 4.8.1-ci, 4.8.10 – 4.8.14-cü, 4.8.16-cı və 4.8.17-ci, 4.10.1-ci və 4.10.5 – 4.10.16-cı yarımbəndlərində nəzərdə tutulmuş vəzifələri yerinə yetirir.

**5. Qurumun nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1. Qurumun nizamnamə fondunun məbləği (məbləğ göstərilməklə) manatdır.

5.2. Qurumun əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Qurum öz əmlakından yalnız Nizamnaməsində müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Qurum balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Qurum qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Qurumun, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Qurum "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətləri göstərdiyi (hüquqi hərəkətləri həyata keçirdiyi) halda həmin Qanunla müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumu, habelə qanunla müəyyən edildiyi hallarda digər ödənişlər tutur.

5.6. Qurumun tutduğu dövlət rüsumunun qanunvericiliklə müəyyən edilən hissəsi Qurumun fəaliyyətinin maliyyələşdirilməsi məqsədilə onun hesabına köçürülür.

**6. Qurumun fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. Qurumun fəaliyyətinə nəzarəti təsisçi, həmçinin bu Nümunəvi Nizamnamə ilə müəyyən edilmiş qaydada Qurumun idarəetmə orqanları həyata keçirirlər.

6.2. Qurumun fəaliyyətinə dair illik hesabat təsisçiyə təqdim edilir.

**7. Qurumda uçot və hesabat**

7.1. Qurum "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Qurum "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik uçot aparır, statistik hesabatları tərtib və təqdim edir.

7.3. Qurum idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Qurum öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

**8. Qurumun ləğvi və yenidən təşkili**

Qurumun ləğvini və yenidən təşkilini təsisçi həyata keçirir.

## İşə qəbul üçün növbəti test imtahanları olub



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın test mərkəzində 17 sentyabr-17 oktyabr 2018-ci il tarixlərində elan edilmiş Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində psixoloq, laborant, kitabxana müdiri, kitabxanaçı, tərbiyəçi və uşaq birliyi təşkilatının rəhbəri vəzifələrinə işə qəbul üçün 29-31 oktyabr tarixlərində test imtahanları keçirilib.

Müsabiqəyə çıxarılmış 97 vakant vəzifənin tutulması üçün 68 nəfər sənəd təqdim edib.

İmtahan zamanı iştirakçılara 80 sual təqdim olunub, sualları cavablandırmaq üçün 120 dəqiqə vaxt verilib. Keçirilən imtahanlarda test tapşırıqlarının ən azı 50 faizini (40 bal) düzgün cavablandırmış şəxslər müvafiq keçid balını toplamış hesab olunurlar. Qanunvericiliyə əsasən keçid balını yığmaqla ən yüksək bal toplamış şəxs müvafiq vəzifəyə təyin olunur.

Vakant vəzifələr üzrə aparılan test imtahanları elektron proqram təminatı vasitəsilə keçirilib. Bu da test suallarını cavablandırarkən iştirakçılara seçdikləri cavabları imtahan vaxtı ərzində dəyişmək, monitorda imtahanın vaxtını izləmək və elektron kalkulyatordan istifadə etmək imkanları yaradıb. Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanların videoçəkilişi də aparılıb. Test imtahanı bitdikdən dərhal sonra iştirakçılara cavab kartı və test imtahanının nəticəsinə dair arayış təqdim edilib. Test imtahanlarının nəticələri komissiyanın rəsmi internet səhifəsində *(www.dqmk.nmr.az)* yerləşdirilib.

Test imtahanlarında iştirak edən 67 namizəddən 56-sı keçid balını toplayıb.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Naxçıvan məhsullarının Türkiyəyə ixracına dair müzakirələr aparılıb

"Made in Azerbaijan" brendinin təşviqi istiqamətində daha bir addım atılıb. İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə növbəti ixrac missiyası 2018-ci il 24-26 oktyabr tarixlərdə İstanbulda təşkil olunub. Missiyaya qida, inşaat və tikinti materialları, mebel istehsalı, turizm, yüngül və kimya sənayesi sahələrində fəaliyyət göstərən Azərbaycan şirkətləri ilə yanaşı, muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 20 nümayəndəsi daxil edilib.

Missiya çərçivəsində "Badamlı Mineral Sular", "Şərur-3", "Savalan-S", "Ordubad Qənnadı Məmulatları" Məhdud Məsuliyyətli və Babək "Sirab"Açıq Səhmdar cəmiyyətlərinin nümayəndələri Türkiyəyə qida, spirtli və spirtsiz içkilərin idxalı ilə məşğul olan TADCO Gida Pazarlama İç ve Dış Ticarət LTD şirkətinin nümayəndəsi ilə ikitərəfli görüşlər keçirib, Naxçıvan məhsullarının Türkiyəyə ixracının genişləndirilməsinə dair müzakirələr aparılıb.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Yeni məktəb binası inşa edilir

Bu il muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Şərur rayonunda da məktəb binalarının tikilməsi və ya yenidən qurulması diqqət mərkəzində saxlanılıb. Qeyd edək ki, cari ildə Ərəbyengicə və İbadulla kəndlərində təhsil müəssisələri üçün müasir binalar tikilərək istifadəyə verilib, maddi-texniki bazaları gücləndirilib. Kosacan və Kərimbəyli kəndlərindəki tam orta məktəb binalarının əsaslı şəkildə yenidən qurulması isə başa çatmaq üzrədir.

Tikintisinə başlanılan məktəb binası bir-birinə yaxın olan Yeni Havuş və Xətai kəndləri üçün nəzərdə tutulub. Üçmərtəbəli məktəb binası 120 şagird yerlik olacaq.

Qısa müddətdə binanın özülündə işlər tamamlanıb, birinci mərtəbədə beton sütunlar qaldırılıb, divarların və arakəsmələrin hörgüsünə başlanılıb. Hazırda ikinci mərtəbədə betonlama işləri aparılır.

Yeni məktəbdə 12 sinif otağı, laboratoriyalar, kitabxana, hərbi kabinə, müəllimlər otağı, 2 elektron lövhəli, 1 kompüter və 1 şahmat sinifləri, idman zalı, bufet olacaqdır. Məktəb qış aylarında fərdi qazanxana ilə qızdırılacaq.

Qeyd edək ki, adıçəkilən həmin ünvanda kənd və xidmət mərkəzlərinin də tikintisi aparılır. Tikintidə texniki təhlükəsizliyin təmin olunması diqqətdə saxlanılır. Keyfiyyət amilinə ciddi riayət edilən tikintidə, əsasən, yerli inşaat materiallarından istifadə olunur.

***Xəbərlər şöbəsi***

## İnteraktiv dərs keçilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamı muxtar respublikada elektron təhsilin tətbiqinin genişləndirilməsinə, təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılmasına, tədrisin əyaniliyinin və səmərəliliyinin daha da artırılmasına böyük imkanlar yaradıb. Sərəncamdan irəli gələn məsələlərin həlli istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində milli-mənəvi dəyərlərimizi özündə əks etdirən muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələrin təşkili həyata keçirilir. Şagirdlərin milli-mənəvi irsimizə aid biliklərinin canlı şəkildə, audiovizual vasitələrlə artırılması təmin edilir.

Oktyabrın 31-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Duz Muzeyi arasında interaktiv dərs aparılıb. Muzeyin direktoru Camal Babayev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Duz Muzeyinin yaradılması haqqında" 2017-ci il 12 sentyabr tarixli Sərəncamı ilə şagirdləri tanış edib, Naxçıvanda qədim şəhər mədəniyyətinin formalaşması barədə ətraflı məlumat verib. Qeyd olunub ki, Naxçıvanın Nuh Peyğəmbərlə bağlılığı hələ qədim dövrlərdən diqqəti cəlb edib, yunan alimi Klavdi Ptolomey bizim eranın ikinci əsrində ilk dəfə olaraq Naxçıvanı Nuh Peyğəmbərin məskəni kimi xatırladıb, on altıncı əsrin görkəmli ərəb alimi, coğrafiyaşünas Əl-Şərifi Nuh Peyğəmbərin məzarının, hətta gəmisinin də qalıqlarının Naxçıvanda olması barədə ətraflı məlumat verib.

Rus tədqiqatçısı Konstantin Nikitinin 1882-ci ildə Tiflisdə nəşr olunan "Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar məcmuəsi"ndə verilən "Naxçıvan mahalı və Naxçıvan şəhəri" adlı irihəcmli məqaləsində Nuh Peyğəmbərin duz mədənində ilk çalışanlardan olması, şəhər əhalisinə duz çıxarmağı öyrətməsi qeyd olunur. Tədqiqatlar göstərir ki, bu ərazidə Eneolit dövründən başlayaraq duz mədəniyyətinin əsası qoyulub. Bu isə 5 minillik Naxçıvan şəhər mədəniyyətinin formalaşmasına güclü təsir göstərib.

Naxçıvan Duzdağının tarixi əhəmiyyəti nəzərə alınaraq bu ərazidə arxeoloji tədqiqatlar aparılıb, müxtəlif dövrlərə aid daş alətlərlə yanaşı, Eneolit və İlk Tunc dövrlərinə aid keramika məmulatları aşkar olunub. Aparılan tədqiqatların davamı olaraq "Uluslararası qaynaqlarda Naxçıvan", "Nuh Peyğəmbər: dünya tufanı və Naxçıvan", "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzularında keçirilən beynəlxalq elmi simpozium və konfranslarda Naxçıvanda Duzdağ mədəniyyəti bir daha elmi əsaslarla təsdiqini tapıb, xarici mütəxəssislərin də iştirakı ilə Naxçıvan Duzdağı haqqında elmi materiallar hazırlanıb, kitablar nəşr olunub.



*Naxçıvan şəhəri, Tumbul kənd tam orta məktəbi*



*Ordubad şəhər 3 nömrəli tam orta məktəb*

Muzeydə nümayiş olunan qədim dövrdə insanların məişətdə istifadə etdiyi daş əmək alətləri, son dövrlərdə duzdan hazırlanmış əl işləri barədə geniş məlumat verilib.

İnteraktiv dərs muxtar respublikanın 200-dən çox təhsil müəssisəsində izlənilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan jurnalistləri ovsunladı

*Ötən günlərdə Şərqi Anadolu Jurnalistlər Cəmiyyətinin İqdırda keçirdiyi konfransdan sonra birgünlük Naxçıvanda səfərdə olduq. Gömrükdən başlayaraq səfər boyunca Naxçıvanda bizə böyük diqqət göstərildi.*

Mən bu yerlərə bələdəm. Lakin ilk dəfə Naxçıvana gedən jurnalist həmkarlarım yol boyunca burada müşahidə etdikləri nizam-intizam qarşısında heyranlıqlarını gizlədə bilmirdilər. Şəhər mərkəzinə çatdıqdan sonra Naxçıvan Dövlət Televiziyasının əməkdaşı bizi qarşıladı və gəzintilərimiz başladı.

1992-ci ildən sonra Naxçıvana tez-tez gedib-gəlirdim. Cənab Vasif Talıbov Ali Məclisin Sədri seçildikdən sonra Naxçıvan tamamilə dəyişildi. Mən inanmıram ki, hansısa bir lider ölkəsində Naxçıvandakı qədər nizam-intizam yarada bilsin. Şəhər mərkəzindəki sovetdənqalma kobud binalar belə, tamamilə yenidən qurulmuşdur. Sanki Naxçıvan yenidən inşa edilib. Park və xiyabanları, şəhərsalma quruluşu ilə gözoxşayan Naxçıvanda bizim təbirimizcə desək, "gül güllə danışır".

Sənətkarlıq və mədəniyyət baxımından da ən yüksək səviyyədə olan Naxçıvanda dəyərlərdən uzaqlaşmayıblar. Türklərə hər zaman qardaş münasibəti göstərilir. Hətta Türkiyədən olan sürücülər belə, Naxçıvanda xüsusi diqqətlə qarşılaşdıqlarını hər fürsətdə etiraf edirlər.

Mənim ən çox diqqətimi çəkən məsələlərdən biri asayişdir. Biz Naxçıvana gedərkən orada keçirilən bal festivalında da iştirak etdik. Fotoaparatlarımız avtomobildə qalmışdı. Festivalı gəzib qurtardıqdan sonra avtomobilin yanına gəldik. Qapılar açıqdı və fotoaparatlara kimsə toxunmamışdı. Sürücüdən niyə qapını bağlamadığını soruşduqda o, "burda kimsə onlara toxunmaz. İstəsən, avtomobilinin qapısını açıq qoyub yata da bilərsən", – dedi. Bu hadisəyə şahid olduqdan sonra keçmiş Avropa səyahətlərimdən birini xatırladım. 2000-ci illərdə Almaniyaya getmişdim. Hollandiyada yaşayan bir həmyerlim təkidlə məni ora dəvət etdi. Qardaşımın avtomobili ilə Hollandiyanın Den Haaq şəhərinə getdik. Avtomobilimizi dayanacaqda saxlayanda bizi qonaq edən dostum "Avtomobildə mühüm əşyalarınızı qoymayın, yoxsa oğurlayarlar", – demişdi. O zaman biz Avropanın mərkəzində tez-tez maşınlardan oğurluq edildiyini öyrəndikdə xeyli təəccüblənmişdik. Bir də indi Naxçıvanda qapıları açıq qalsa belə, avtomobillərə kimsənin toxunmadığının, oğurluq edilmədiyinin şahidi olduqda çox təəccübləndik və qəribəmizə gəldi.

Naxçıvanda sənaye və kənd təsərrüfatının inkişafı istiqamətində mühüm işlər görülmüşdür. Kəndlərdə çayxanalar yoxdur. Hər kəsə torpaq verilib və insanların işləyib pul qazanması üçün geniş imkanlar yaradılıb. Aqrar sahəyə bağlı sənaye istehsalı dəstəklənir. Bəzi məhsulların xaricdən idxalı qadağan olunub. Çünki Naxçıvanda əhalinin tələbatından artıq məhsul istehsal olunur.

Naxçıvan tikinti sektorunda mühüm mərhələ keçərək gözəl işlər ortaya qoymuşdur. Orada təhsilə xüsusi önəm verirlər. Əvvəllər Tibb fakültəsi olmayan Naxçıvan Dövlət Universitetində bu gün müalicə işi, diş həkimi və əczaçılıq ixtisasları üzrə təhsil verilir. Tələbələr qarşılıqlı mübadilə əsasında Türkiyə universitetlərində də təhsil alırlar. Jurnalistika ixtisasının tələbələrinin istifadəsinə ən son texnologiyalara əsaslanan Media mərkəzi verilib.

Düşünürəm ki, memarlıq və incəsənət ixtisasları üzrə Naxçıvanda və bütövlükdə Azərbaycanda təhsilin səviyyəsini hər hansı bir yerlə müqayisə etmək düzgün deyil.

İllərdir, Naxçıvana gedib-gəlirəm. Orada duz dağının olduğunu bilirəm. Hətta beşulduzlu "Duzdağ" otelində də bir neçə dəfə qalmışam. Lakin astma xəstələrinin müalicə olunduğu Duzdağ Fizioterapiya Mərkəzinə getməmişdim. Səfər zamanı ora da baş çəkdik. Həqiqətən, heyran qaldım. Bu müalicə mərkəzində gördüyüm şəraiti yaradanları təbrik edirəm.

Son vaxtlar Naxçıvana az gedirik. Səbəbini bilmirəm. Amma onu bilirəm ki, Naxçıvan əhalisi bizim qardaşımızdır. Ora xarici bir ölkə deyil. Əkiz qardaşımızdır. Bölgənin inkişafı üçün Naxçıvanla sıx əməkdaşlıq etmək lazımdır. Bu əməkdaşlıq da ancaq tez-tez səfər etməklə olur. Bizim prezidentimiz seçkilərdən sonra ilk səfərini Azərbaycana edirsə, biz də hər fürsətdə Naxçıvana gedib-gəlməliyik.

Biz jurnalistlər olaraq getdik. Geri qayıtdıqdan sonra səfərin qısa olduğu və bir gün də qalmaq gərəkdiyi barədə söz-söhbətlər qulağıma çatdı. Gələcəkdə onu da edərik. Media nümayəndələri arasında qarşılıqlı əlaqələrin qurulması planlaşdırılır. Bu planlarımız gerçəkləşdikdən sonra tez-tez Naxçıvana səfər edəcəyik. Tövsiyə edirəm ki, iş adamları da gedib Naxçıvanı bir neçə dəfə incələsinlər.

**İsmail Aras**
***"Güvən" qəzeti, İqdır***

## Uşaqların icbari dispanserizasiyası onların sağlamlıq statusunun müəyyənləşdirilməsində mühüm amildir

***Son illər ölkəmizdə, eləcə də muxtar respublikamızda uşaqların sağlamlığının qorunmasına yönəldilmiş çoxsaylı dövlət proqramları qəbul edilir, uşaq hüquqlarının etibarlı təminat mexanizmləri yaradılır, ölkənin sürətli inkişafı fonunda uşaqların təhsili və intellektual inkişafı istiqamətində önəmli layihələr həyata keçirilir.***

"Erkən müdaxilə" adlı şöbələr açılır. Məqsəd odur ki, körpələr erkən müayinədən keçsinlər. Lakin həmin şöbələrdə uşaqlar 3 yaşına qədər müayinə olunurlar. Bizdə isə doğulan gündən 18 yaşınadək bütün uşaqlar icbari müayinədən keçməlidirlər. Müsahibimin sözlərinə görə, ölkəmizdə yeni doğulanlar bir ayda 3, 3 yaşa qədər ildə 2, 3 yaşdan 18 yaşa





Dövlət başçısının imzaladığı "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 2018-ci il 9 avqust tarixli və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 2018-ci il 9 oktyabr tarixli sərəncamları uşaqlara göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Dövlət proqramlarının məqsədi uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətini yüksəltməklə onların arasında xəstələnmə, sağlamlıq imkanlarının məhdudluğunun və ölüm səviyyəsinin azaldılmasıdır.

Sərəncamlardan irəli gələn vəzifələrin icrası ilə bağlı Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimova müraciət etdik.

Həkim bildirdi ki, icbari dispanserizasiyanın əsas məqsədi uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin daha da yüksəldilməsi, onların mütəmadi olaraq kompleks müayinələrdən keçirilməsi, erkən dövrdə aşkar olunan xəstəliklərin vaxtında müayinə və müalicəyə cəlb olunmasıdır.

2013-cü ilin aprel ayından ölkəmizdə "Uşaqların icbari dispanserizasiyası haqqında" Qanunun qüvvəyə mindiyini xatırladan baş pediatr bu sənədin icrası ilə bağlı işlək mexanizmin yarandığını, Səhiyyə Nazirliyi tərəfindən müxtəlif tapşırıqların verildiyini də qeyd etdi. Bildirdi ki, dünyanın bir çox ölkələrində qədər isə ildə 1 dəfə müayinədən keçməlidirlər. Qanunun ayrıca valideyn məsuliyyətinə aid maddəsi də var.

Qanunun icrası ilə bağlı sərf olunan vəsaitin dövlət hesabına ödənildiyini diqqətə çatdıran həkim onu da qeyd etdi ki, təhsil müəssisələrində, bağçalarda, həbsxanalarda, internat məktəblərdə olan uşaqlar ildə bir dəfə müayinəyə cəlb olunurlar. Məktəblər üzrə qarşılıqlı anlaşma yolu ilə müayinələr aparılır. İlkin həkim baxışından sonra ikinci mərhələdə lazımi müayinələr həyata keçirilir.

Baş həkim bildirdi ki, uşaqların icbari dispanserizasiyasının həyata keçirilməsinə təkcə həkimlərin yox, həm də valideynlərin dəstəyi olmalıdır. Dövlət bunu icbari həyata keçirir və bununla bağlı ölkədə qanun var. Bu, uşaqların sağlamlıq statusunu müəyyənləşdirən qanundur.

Rəhim Rəhimov muxtar respublikamızın rayonlarında, o cümlədən kənd yaşayış məntəqələrində dövlət sənədinin icrasının qanunamüvafiq olaraq həkim briqadaları tərəfindən icra hakimiyyəti nümayəndələrinin dəstəyi ilə mövcud tibb müəssisələrində həyata keçirildiyini də bildirdi.

Bəli, bu gün uşaqların icbari müayinəyə cəlb edilməsi üçün muxtar respublikamızda aparılan təbliğat və təşviqat işləri yüksək səviyyədədir və bu prosesdə tibb işçiləri ilə yanaşı, aidiyyəti qurumlar da xüsusi fəallıq göstərirlər. Çünki sağlam gələcəyin təməli sağlam uşaqlarla qoyulur.

**✍ Gülcamal TAHİROVA**

## İndi hər yerindən duran Naxçıvana tərəf boylana bilməz

***Bu, tarixən belə olub: Nə qədər ki gücün-qüvvətin, topun-tüfəngin yoxdur, hər yerindən duran sənə darğalıq etməyə çalışıb: imkan düşən kimi vurub-yıxıb, itələyib çaya salıb, əlindən çörəyini, Vətənindən torpağını qoparıb. Yox, əksinə, elə ki gücün-qüdrətin, güclü ordun, dayanıqlı iqtisadiyyatın var, onda hamı öz arşınını buna görə ölçüb. Əsən də, coşan da, dağdan-yamacdan aşan da ətrafında hərlənib-fırlanıb sonra da sakitcə çəkilib öz qınına…***



Uzun sözün qısası, oktyabrın 30-da Naxçıvanda keçirilən Naxçıvan Qarnizonu Qoşunlarının Xüsusi Təyinatlı Birləşmə və Hissələrinin birgə taktiki-xüsusi təlimi həm ölkə daxilində, həm də yaxın coğrafiyada böyük maraqla izlənildi.

Uğurla başa çatan bu təlimlər, heç şübhəsiz, bir neçə cəhətdən xüsusi əhəmiyyət daşıyır:

***Birincisi:***

Azərbaycanın, eləcə də Naxçıvanın ordusu ötən əsrin 90-cı illərində olduğu kimi sınıq-salxaq "Kalaşnikov"ların və ya ov tüfənglərinin ümidinə qalmayıb. İndi hər yerindən duran Naxçıvana tərəf boylana bilməz!

***İkincisi:***

Ötən 25 il boşa verilməyib. Güclənən Azərbaycan dövləti həm də güclü iqtisadiyyat və modern ordu yaradıb.

***Üçüncüsü:***

Müasir döyüş təyyarələri, hava hücumundan müdafiə sistemləri, yüz kilometrlərlə məsafədə yerləşən hədəfləri "şumlamaq" iqtidarında olan zenit-raket və artilleriya kompleksləri, zirehli döyüş maşınları Naxçıvan ordusunun arsenalındadır və "atəş" əmrini gözləyirlər.

**Və nəhayət, dördüncüsü:**

İndi Naxçıvanı yüksək VƏTƏNPƏRVƏR RUHLU, od ürəkli, polad biləkli oğullar qoruyur! Bu, dövlət-xalq-ordu birliyinin ötən 25 ildə bizə qazandırdığı ən böyük mirasdır.

Ümumilikdə, min nəfərdən artıq şəxsi heyətin, 80-ə yaxın zirehli texnikanın, 20-dən artıq hava hücumundan müdafiə vasitələrinin, onlarla aviasiya texnikasının bir araya gəldiyi təlimdə qarşıya qoyulmuş vəzifə və tapşırıqların dəqiqliklə və itkisiz yerinə yetirilməsi bir daha təsdiq etdi ki, ordu peşəkarlara etibar edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov: ***"Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasındakı ordu, birləşmə və hissələri istənilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyə qadirdir. Ordumuz ona görə güclüdür ki, şəxsi heyətdə yüksək vətənpərvərlik var. Vətənpərvərlik sahib olduğumuz ən ali dəyərimizdir. Bu gün keçirilən hərbi təlimdən çıxarılan konkret nəticə də ondan ibarətdir ki, Silahlı Qüvvələrimizin hərbi qulluqçuları yüksək döyüş hazırlığı ilə yanaşı, həm də yüksək vətənpərvərliyə malikdirlər".***

Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov: *"Bu gün Əlahiddə Ümumqoşun Ordusu ən müasir silah, texnika və digər avadanlıqlarla təmin edilib. Keçirilən təlim bunu bir daha təsdiq etdi. Muxtar respublikadakı bütün güc strukturlarının xüsusi təyinatlıları tərəfindən qarşıya qoyulan tapşırıqlar uğurla yerinə yetirildi, şəxsi heyət yüksək peşəkarlıq nümayiş etdirdi. Artıq düşmən Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun, eləcə də Silahlı Qüvvələrin muxtar respublikadakı digər birləşmə və hissələrinin yüksək döyüş hazırlığından, müasir silah və texnika təminatından qorxur və bunu etiraf edir".*

Təbii ki, ordu quruculuğuna göstərilən xüsusi diqqət və müntəzəm keçirilən hərbi təlimlər heç də iş görmək və ya sadəcə, görüntü yaratmaq səciyyəsi daşımır. Biz bu təlimlərin və ordu quruculuğunun real nəticələrini Aprel döyüşlərində və bu ilin əvvəlində Şərur rayonu istiqamətində həyata keçirilən Günnüt əməliyyatında gördük. Günnüt əməliyyatı nəticəsində ordumuzun nəzarəti altına düşən Ermənistanın Areni (Arpa) kəndinin sakinlərinin işğalçı ölkə mətbuatına müsahibələrindən: "Səhər yuxudan ayılıb gördük ki, əvvəl bizim nəzarətimizdə olan ərazilərdə Azərbaycan əsgərləri post qurub. İrəvandan Qarabağa gedən əsas yolu da nəzarətə götürüblər. Biz, görəsən, son 30 ildə bir daşı belə, daş üstünə qoyulmayan, boşalan kəndlərlə, torpağı mürgü vura-vura qoruyan ordu ilə hara gedirik?! Yəqin, bir səhər də ayılıb görəcəyik ki, nə kəndimiz var, nə də paytaxtımız. Düşmən güclənir, biz batırıq. Allah axırımızı xeyir eləsin".

Bəli, ermənilərin bu səmimi etirafları, əslində, günün reallığıdır. Uçuruma yuvarlanan ordu, günbəgün azalan əhali, iqtidara qarşı hər gün genişlənən etiraz aksiyaları, canlı qüvvə və texnika çatışmazlığı, dərin iqtisadi tənəzzül bugünkü Ermənistanın real mənzərəsidir. İstər bir deyil, beş inqilab edib yeni-yeni paşinyanlar ortalığa çıxarsalar da, heç nə dəyişməyəcək. Çünki işğalçılıq siyasəti və dağılmış iqtisadiyyatla qəhrəman düzəldib dünyanın gözünə dürtdükləri qaniçən Andronik də qəbirdən durub gəlsə, bir şey edə bilməz. İndi reallıqla yaşayan dünya qaranlıq otaqda qara pişik axtarmaq məramını çoxdan arxivin bir küncünə tullayıb!

Bəs bizim bugünkü reallığımız nədir? Sadəcə, belə ifadə edək: Bütün dünyanın hesablaşdığı güclü Azərbaycan! Ordusunu döyüşə, özünü daha parlaq gələcəyə hazırlayan Azərbaycan!

*__P.S.__ Gəlin onu heç vaxt yaddan çıxarmayaq və etiraf edək ki, Allaha dua etməklə donuz darıdan öz xoşu ilə çıxmır! Ona görə də biz hər gün yox, hər an güclənməliyik. Hərəmiz öz iş və vəzifəmizi daha yaxşı yerinə yetirməklə…*

**Sahil Tahirli**
***jurnalist***

*1 noyabr Kənd Təsərrüfatı İşçiləri Günüdür*

# Muxtar respublikada aqrar sahə uğurla inkişaf etdirilir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 9 oktyabr tarixli Fərmanı ilə hər il noyabrın 1-i ölkəmizdə Kənd Təsərrüfatı İşçiləri Günü kimi qeyd olunur.***

Ümummilli lider Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə Azərbaycan keçmiş ittifaqın aqrar əlavəsindən kənd təsərrüfatının kompleks inkişaf etdiyi qabaqcıl respublikalardan birinə çevrilmişdir. Həmin dövrdə ölkəmizdə kənd təsərrüfatının elmi əsaslarla inkişafı nəticəsində bu sahədə zəngin təcrübə formalaşmışdır. Təəssüf ki, müstəqilliyin ilk illərində ölkədə baş verən özbaşınalıq nəticəsində aqrar sahədə yaradılan bu infrastruktur da tamamilə dağıdılmışdır. Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ümummilli lider isə kənd təsərrüfatının inkişafının vacibliyini daim ön plana çəkmiş, bununla bağlı mühüm qərarlar qəbul etmişdir. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında” və “Rentabelli işləyən kolxoz və sovxozların ictimai malqarasının özəlləşdirilməsi barədə təkliflər haqqında” qərarlar qəbul edilmiş, bununla da Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanılmış, özəl mülkiyyətə əsaslanan aqrar münasibətlər formalaşmışdır. 1993-2003-cü illərdə isə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə bu istiqamətdə kompleks tədbirlər görülmüş, uğurlu islahatlar həyata keçirilmiş, qanunvericilik bazası yaradılmışdır.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev kənd təsərrüfatının inkişafını diqqətdə saxlayır. Ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikasında da kənd təsərrüfatının inkişafı daim diqqət mərkəzində saxlanılır. Aparılan islahatlar bitkiçilik və heyvandarlıq, eləcə də emal sənayesinin inkişafı üçün geniş imkanlar açmışdır. 2000-ci ildə muxtar respublikada torpaq islahatı başa çatdırılmış, 72 min 758 ailəyə 56 min 372 hektar torpaq sahəsi verilmişdir. Bundan sonra kənd təsərrüfatının inkişafında əsaslı dönüş yaradılmış, bol məhsul istehsalının əsası qoyulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” və “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı” muxtar respublikada aqrar sahənin inkişafına mühüm təkan vermiş, kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə uğurlu nəticələr qazanılmışdır.

Muxtar respublikada əhalinin əsas hissəsinin kənd təsərrüfatı ilə məşğul olması burada əkinçiliyin inkişafını şərtləndirir. Fermerlərə taxıl əkinlərinə görə subsidiyaların verilməsi, texniki təminatın yaxşılaşdırılması üçün istehsalçılara lizinq yolu ilə güzəştli şərtlər əsasında texnika və gübrələrin satılması, əkinçiliyin inkişafında yeni istiqamətlər açmış, əkin sahələrinin və məhsuldarlığın ilbəil artmasına səbəb olmuşdur. 2018-ci ilin məhsulu üçün muxtar respublikada 61 min 935 hektar sahədə əkin aparılmışdır. Cari ilin 9 ayı ərzində muxtar respublikada 104 min 413 ton dənli və dənli-paxlalı, 10 min 256 ton dən üçün qarğıdalı, 760 ton dən üçün günəbaxan, 33,9 ton tütün, 72 min 816 ton tərəvəz, 48 min 473 ton kartof, 36 min 621 ton bostan məhsulları, 39 min 780 ton meyvə, 9 min 848 ton üzüm istehsal olunmuşdur. Bir neçə məhsul növü üzrə yığım hazırda davam etdirilir.

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrası ilə əlaqədar olaraq Kənd Təsərrüfatı Nazirliyi tərəfindən əhalinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsi məqsədilə meyvəçiliyin inkişafı ilə bağlı müvafiq tədbirlər həyata keçirilir. Son illər əkinçilik üçün yararlı olmayan torpaq sahələrində imacilikləar yolu ilə salınan yeni meyvə bağları muxtar respublikanın yaşıl örtüyünü zənginləşdirməklə yanaşı, həm də əhali tələbatının ödənilməsi üçün geniş imkanlar açır. Hər il bu meyvə bağlarından tonlarla məhsul yığılır. Yeni və ənənəvi meyvə sortlarından ibarət bağların salınması da davam etdirilir.





Torpaq sahələrinin normalara uyğun suvarma suyu ilə təchizatı əkinçiliyin inkişafını təmin edən əsas amillərdən biridir. Buna görə də muxtar respublikada irriqasiya sistemləri daim yeniləşdirilir, qapalı suvarma şəbəkələri qurulur, meliorasiya tədbirləri həyata keçirilir. Bu da torpaq sahələrində su təminatının yaxşılaşdırılmasına, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına imkan verir. 2015-ci ildə Vayxır sol sahil kanalından qidalanan və 2200 hektar torpaq sahəsini əhatə edən qapalı suvarma və drenaj şəbəkəsi, 2016-cı ildə Babək rayonunun Kültəpə və Kərimbəyli kəndlərinin 565 hektar torpaq sahəsini əhatə edən yeni suvarma şəbəkəsi və 2017-ci ildə isə Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 407 hektar torpaq sahəsini əhatə edən yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilmişdir. Bununla yanaşı, hazırda Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 600 hektar sahəni əhatə edəcək yeni qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilir.

Yüksəkkeyfiyyətli qida məhsullarının, xüsusilə süd və ət məhsullarının əldə olunması məqsədilə heyvandarlığın inkişafı diqqət mərkəzində saxlanılır. Əsasən, düzən yerlərdə heyvandarlığın ətlik-südlük istiqaməti inkişaf etdirilir. Bunlar da muxtar respublikada mal-qaranın baş sayının artırılmasına və əsas növ heyvandarlıq məhsullarının istehsalının çoxalmasına imkan yaradır. Hazırda muxtar respublikada iribuynuzlu mal-qaranın baş sayı 117 min 969-a, xırdabuynuzlu heyvanların sayı isə 728 min 733-ə çatdırılmışdır. Cari ilin ötən dövründə 15 heyvandarlıq, 2 quşçuluq təsərrüfatı yaradılmış, bank və kredit təşkilatları tərəfindən kənd təsərrüfatı ilə məşğul olan təsərrüfat subyektlərinə, ümumilikdə, 4 milyon 530 min manatdan artıq güzəştli kredit verilmişdir ki, bunun da 3 milyon 872 min 600 manatı heyvandarlığın inkişafı üçün ayrılmışdır.

Əhalini sağlam heyvandarlıq məhsulları ilə təmin etmək üçün Dövlət Baytarlıq Xidməti tərəfindən də tədbirlər həyata keçirilir. Bu məqsədlə həyata keçirilən sistemli tədbirlər nəticəsində qida məhsullarının, xüsusilə ət və süd məhsullarının yüksək keyfiyyət göstəricilərinin təmin olunması, heyvan mənşəli xəstəliklərə qarşı vaxtında mübarizə tədbirlərinin aparılması prosesləri uğurla davam etdirilir.

Heyvandarlığın inkişafında əsas amillərdən biri də cins tərkibin yaxşılaşdırılması və süni mayalandırma tədbirlərinə üstünlük verilməsidir. Bu iş muxtar respublikada daim diqqətdə saxlanılır, baytarlar süni mayalandırma avadanlıqları ilə təmin olunurlar. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu il heyvandarlıq təsərrüfatlarında süni yolla 8 min 422 baş inək, düyə və camış mayalandırılmış, əvvəlki dövrdə mayalandırılmış inək, düyə və camışlardan 6 min baş sağlam bala alınmışdır. Hazırda Babək rayonu ərazisində yeni süni mayalandırma mərkəzinin tikintisi davam etdirilir. Süni mayalandırma mərkəzi istifadəyə verildikdən sonra heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması istiqamətində daha geniş imkanlar olacaq. Əhalinin balıq əti ilə təmin olunması istiqamətində də əsaslı işlər görülmüşdür. Hazırda muxtar respublikada balıq yetişdirilməsi ilə bağlı 16 təsərrüfat fəaliyyət göstərir. Görülmüş işlərin nəticəsidir ki, 2018-ci ilin 9 ayı ərzində diri çəkidə ət istehsalı 18 min 630 ton, süd istehsalı 71 min 178 ton, yun istehsalı 895 ton, yumurta istehsalı isə 75 milyon 729 min ədəd olmuşdur.

Muxtar respublikada 71 min 66 arı ailəsi vardır. Bu sahə üzrə dövlət proqramının qəbul olunması, istehsal olunan balın satışı üçün şəraitin yaradılması və ənənəvi olaraq “Arıçılıq məhsulları – bal festivalı”nın keçirilməsi arı ailələrinin çoxalmasına, bal istehsalının artmasına və bu sahədə sahibkarlığın inkişafına stimul olmuşdur.



Kənd təsərrüfatının bitkiçilik sahəsində əldə olunan uğurlarda sahibkarların müasir kənd təsərrüfatı texnikaları ilə təchiz olunmasının böyük rolu vardır. Hazırda muxtar respublikada sahibkarlara aqroservis xidməti “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin rayonlarda olan kənd təsərrüfatı maşın və aqreqatları ilə yanaşı, həm də şəxsi texnikalar vasitəsilə həyata keçirilir. Ötən dövr ərzində “Naxçıvan Aqrolizinq” ASC-nin xətti ilə 2373 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası gətirilmiş, onlardan 1856-sı nağd hesablaşma və lizinq yolu ilə sahibkarlara satılmışdır. Alınmış texnika və aqreqatların 319-u cari ilin 9 ayında gətirilmişdir. Mövcud texnikalar kənd təsərrüfatı sahəsində aqrotexniki tədbirləri keyfiyyətlə həyata keçirməyə imkan verir. Fermerlərə lizinq yolu ilə müasir tələblərə cavab verən yeni kənd təsərrüfatı texnikalarının alınıb icarəyə verilməsi ilə bağlı güzəştlərin tətbiqi isə bu sahədə fəaliyyətin səmərəli təşkilinə hesablanıb.

Əkinçilikdə məhsuldarlığın yüksəldilməsi üçün vacib amillərdən biri torpaqların qida maddələri ilə təminolunma dərəcəsinin müəyyən edilməsidir. Bu məqsədlə əkindən əvvəl müvafiq qaydalara uyğun olaraq götürülmüş torpaq nümunələri laboratoriya analizindən keçirilməlidir. Bu istiqamətdə muxtar respublikada mühüm tədbirlər həyata keçirilmiş, nazirliyin “Araz” Elm-İstehsalat Birliyi, Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsi üçün yüksək standartlara cavab verən yeni inzibati bina tikilmiş, birliyin nəzdində müasir avadanlıqlarla təchiz edilmiş regional Aqrokimya laboratoriyası yaradılmış, toxumçuluq laboratoriyası yeni avadanlıqlarla təchiz olunmuşdur. Yeni binada işçilərə yüksək iş şəraiti yaradılmış və müasir avadanlıqlarla təchiz edilmişdir. Bundan sonra əkin sahələrindən götürülmüş torpaq nümunələri yeni yaradılmış laboratoriyada dəqiqliklə analiz ediləcəkdir.

Muxtar respublikada məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə toxumçuluq təsərrüfatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər davam etdirilir. Hazırda muxtar respublikada 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Sahibkarlara elit, I və II reproduksiyalı buğda və arpa toxumlarının satışının təşkil edilməsi, eləcə də 70 faiz güzəştli şərtlərlə mineral gübrələrin verilməsi təmin olunur. Ötən dövr ərzində məhsul istehsalçıları 5 min 82 ton mineral gübrə ilə təmin olunmuşdur. İstehsal olunan I və II reproduksiyalı toxumların satışına görə dövlət tərəfindən subsidiyaların ödənilməsi, eləcə də əkin sahəsinin hər hektarına fermerlərə 50 manat yardım, buğda istehsalçılarına əlavə 40 manat verilməsi taxıl istehsalına marağı daha da artırmışdır.

Əhalini ilboyu meyvə-tərəvəz məhsulları ilə təmin etmək muxtar respublikada aqrar sahədə həyata keçirilən əsas tədbirlərdəndir. İritutumlu soyuducu anbarların tikilməsi və istixana komplekslərinin yaradılması ilin istənilən fəslində bazarın tələbatının ödənilməsinə imkan verir. Hazırda muxtar respublikada ümumi tutumu 14 min 245 ton olan 33 soyuducu anbar və sahəsi 129 min 162 kvadratmetr olan 22 istixana kompleksi fəaliyyət göstərir. Muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının etibarlı ödənilməsi istiqamətində əlavə tədbirlər də görülür, istehsal olunan malların satışı üçün hərtərəfli şərait yaradılır. Artıq bir neçə ildir ki, istehsalçıların istehsal etdikləri məhsulların satışını təmin etmək üçün kənd təsərrüfatı məhsullarının satış yarmarkaları təşkil edilir. Bütün bunlar əhalinin ərzaq məhsulları ilə etibarlı təmin olunmasında həlledici rol oynayır. Etibarlı ərzaq təminatının yaradılması hesabına ixrac potensialı da artırılmış, 2018-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikadan 85 milyon 784 min 300 ABŞ dolları dəyərində kənd təsərrüfatı, o cümlədən meyvə-tərəvəz məhsulları ixrac olunmuşdur. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, ötən dövrdə muxtar respublikada 352 milyon 466 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz çoxdur.

Aqrar sahənin inkişafı muxtar respublikada ailə təsərrüfatlarının fəaliyyəti üçün geniş imkanlar açır. İstər məhsul istehsalı və satışı üçün yaradılan şərait, istərsə də texnika təminatı və dövlət maliyyə dəstəyinin göstərilməsi ailə təsərrüfatlarının sayının ilbəil artmasına səbəb olmuşdur. Bu gün muxtar respublikada ailə təsərrüfatlarının əksər hissəsinin aqrar sahə üzrə ixtisaslaşması daxili bazarın keyfiyyətli yerli məhsullara təminatına öz töhfəsini verir.

***Muxtar respublikada kənd təsərrüfatının inkişafı və ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində Kənd Təsərrüfatı Nazirliyinin qarşısına qoyulan vəzifələr bundan sonra da diqqət mərkəzində saxlanılacaq, ardıcıl tədbirlər həyata keçiriləcəkdir.***

**Naxçıvan Muxtar Respublikası**
**Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 804